30 dekabr 2022-ci il, cümə

Xalq qəzeti

## *Milli qürur tariximiz*

# Gəncə elə o Gəncədir

## *168 il öz adına həsrət qalmış şəhər*

**Qədim tarixi olan Gəncə 168 il özgə adla yaşamağa məcbur oldu. 114 il Yelizavetpol, 54 il isə Kirovabad adlandırıldı. 33 il bundan əvvəl bu başıbəlalı şəhər öz adını bərpa etdi.**

“Böyük qardaşlar”ımız niyə sevmirdilər Gəncə adını? Özü də təkcə adınımı? Yox, əlbəttə, adını sevmirdilərsə, deməli şəhərin yerli sakinlərini də xoşlamırdılar və nəyin bahasına olursa-olsun, tarixdən silmək, keçmişini, qədimiliyini, adət-ənənəsini, mentalitetini unutdurmağa cəhd göstərirdilər. Bu qədim şəhərin böyüklüyü, əzəməti, insanlarının mərdliyi, qorxmazlığı da onları çaşdırır, dəqiq desək, qısqanclıq hissi oyadırdı. Ərəb coğrafiyaşünası İbn Haykəl hələ 977-ci ildə görün nə yazırdı: “Gənzə (Gəncə – H.Q.) gözəl, varlı və qələbəlik şəhəridir. Buranın çoxsaylı əhalisi səxavətinə, mehribanlığına, elm adamlarına və mühacirlərə hörmətli münasibətlərinə görə fərqlənirlər”.

Gəncə strateji əhəmiyyətinə görə də düşmənlərin yuxusuna haram qatırdı. Azərbaycanı işğala gəlmiş rus qoşunlarının komandanı Sisyanov I Aleksandra məktubunda yazırdı ki, “Gəncə qalası yerləşməsinə görə bütün Azərbaycanı qorxu altında saxlamaq imkanı verdiyindən onun ələ keçirilməsini Rusiya üçün çox önəmli saymağa əsas verir”.

1804-cü il yanvarın 3-də rus qoşunları Cavad xanın başçılıq etdiyi Gəncə üzərinə hücum edir və qalanı ələ keçirirlər. Cavad xan, onun ortancıl oğlu Hüseynqulu ağa, iki qardaşı oğlu və bir neçə yaxın qohumu, bütövlükdə 3700 gəncəli şəhid olur. Gəncədə dinc əhaliyə amansızlıqla, qəddarcasına divan tutulması çar I Aleksandrın xoşuna gəlir. Təsadüfi deyildi ki, o, Sisyanova Gəncənin işğalı zamanı baş verən hadisələrdən razılıq edərək yazırdı: “Asiya qüruru qarşısında güzəştə getmək pis olardı və belə bir örnək o ölkənin başqa hakimlərini də dikbaşlığa gətirərək sizə tapşırılan planın yerinə yetirilməsində sonralar çətinlik doğura bilərdi”.

Özünün amansız qəddarlığı ilə ad çıxaran Sisyanov qəzəbi soyumayaraq Gəncənin adını dəyişib imperatorun xanımı Yelizaveta Alekseyevnanın şərəfinə onu Yelizavetpol adlandırmaq haqqında çardan razılıq alır. Şəhərin köhnə adını çəkmək üstündə gümüş pulla bir manat cərimə müəyyən edir. Amma gəncəlilər bu hədə-qorxulara məhəl qoymayaraq öz şəhərlərini “İmam Söyün”( Məhəmməd Peyğəmbərin (s.) nəvəsi, şiəliyin üçüncü imamı Hüseyn ibn Əli ibn Abutalibin (ə). adı ilə) adlandırırlar. Maraqlıdır ki, indinin özündə də bəzən hər hansı bir mövzuda söhbət düşəndə “Gəncə İmam Hüseyn şəhəridir” deyirlər.

Beləliklə, çar hökuməti düz 114 il “Gəncə” sözünü işlətməyə imkan vermədi. Amma xalqın yaddaşından onu silmək mümkün olmadı. Gəncə adının yenidən rəsmi qaydada özünə qaytarılmasında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xüsusi rolu oldu. 1918-ci il iyulun 30-da tarixi bir qərar qəbul edildi: “Yelizavetpol şəhərinin adı Gəncə və Karyagin qəzasının adı Cəbrayıl qəzası ilə əvəzlənsin”.

Ancaq bu sevinc uzun sürmədi. 1920-ci ilin aprelində bolşevik Rusiyasının XI Qırmızı ordusu Azərbaycana soxuldu. Belə bir çətin vaxtda işğalçılara qarşı ən böyük üsyan yenə Gəncədə oldu. Amma üsyan qan içində boğuldu. Ələ keçən üsyançılara divan tutuldu. Gəncə üsyanı və sonrakı “təmizləmə” vaxtı 13 min nəfərdən çox vətənpərvər şəhid oldu. Ermənilər ruslarla birlikdə şəhəri 3 gün qarət etdilər.

1935-ci ildə Moskvanın göstərişi ilə Gəncə şəhərinin adı yenidən dəyişdirildi. Bu dəfə isə şəhərə Azərbaycanın işğalında, respublikamızda müstəmləkə rejiminin qurulmasında və ərazi bütövlüyümüzün parçalanmasında, torpaqlarımızda ermənilər üçün muxtar vilayət yaradılmasında böyük rolu olmuş S.M.Kirovun adı verildi.

Sovet dövründə Kirovabad adının dəyişdirilməsi o qədər də asan deyildi. Amma buna baxmayaraq ciddi addımlardan biri 70-ci illərdə atıldı. Həmin dövrdə respublikaya rəhbərlik edən ulu öndər Heydər Əliyevin razılığı və tapşırığı ilə Kirovabad şəhərində iki yeni rayon yaradıldı və onlardan birinə Gəncə adı verildi. Həmçinin orada salınan təzə yaşayış massivi də “Yeni Gəncə” adlandırıldı. Beləliklə, Gəncə sözü yenidən rəsmi sənədlərdə işlənilməyə başladı. Bu, şübhəsiz ki, milli şüura, düşüncəyə təsir edən hadisə oldu.

Heydər Əliyev Gəncədəki çıxışlarının birində deyirdi: “Bizim böyük şairimiz Nizaminin adı Bakıda çox yerlərdə var idi, amma mən istəyirdim ki, bir rayon da Nizaminin adını daşısın... O vaxt Gəncənin adını bərpa etmək böyük cəsarət tələb edirdi. Biz o rayonlardan birinin adını “Gəncə”, o birisinin adını “Kəpəz” qoyduq.

Bu məlumdur, gərək ki, bir neçə dəfə deyiblər, – o vaxt buradan təkliflər verilmişdi, Moskvaya da artıq yazılmışdı, çünki o zaman biz bu rayonları özbaşına yarada bilməzdik, bunun üçün Moskvanın qərarı olmalı idi. Deyəsən, birinə “Zavod rayonu”, birinə də “Proletar rayonu” adı verilmişdi. Yəni layihədə, Sovet hökumətinin qərar layihəsində bu vardı. Mən o layihəni dəyişdirdim və “Gəncə”, “Kəpəz” adlarını verdik. Bakıda yaranan yeni rayonu isə, – o vaxt Bakıda on rayon var idi, – “Nizami rayonu” adlandırdıq. Bizim böyük şairimiz Nizaminin adı Bakıda çox yerlərdə var idi, amma mən istəyirdim ki, bir rayon da Nizaminin adını daşısın. Bir vaxt da xalqımız üçün, eyni zamanda da, Gəncə üçün, – çünki Nizami də gəncəlidir, Nizami deyəndə də Gəncə düşünürsən, – bir rayonun adı “Gəncə”, o biri də “Kəpəz” qoyuldu – Kəpəz də Gəncədir. Bəli, biz bu milli adları 1980-ci ildə qoyduq".

Ulu öndərin o dövrdə belə qərarların qəbul edilməsinin çətinlikləri haqqında açıqlaması çox maraqlıdır: “Nizami rayonu” nu ki, yaratdıq – onun adını da “Sovet rayonu” qoymaq istəyirdilər. “Zavod”, “Proletar” və “Sovet” rayonları – 3 dənə belə ad vermişdilər, özü də burada, Azərbaycanda bəzi adamlar məndən xəbərsiz bu layihəyə razılıq vermişdilər. Artıq Moskvada layihə hazırlanmışdı və imzalanmalı idi. Bu ərəfədə mən böyük çətinliklə, şübhəsiz ki, böyük risklə, – yenə də deyirəm, bu işdə cəsarət lazım idi, – layihəni dəyişdirdim. Olan olub, keçən keçib, o vaxt ümumiyyətlə, təkcə Azərbaycanda yox, Moskvada da nüfuzum yüksək olduğuna görə, bu barədə təkliflərim qəbul edildi. Ancaq həm Moskvada, həm də burada bizim əleyhimizə olan bəzi dairələrdən dedilər ki, Heydər Əliyev tamamilə büruzə verdi ki, o millətçidir. Bilirsiniz ki, o vaxt da “millətçi” sözü o adamlara qarşı işlədilirdi ki, guya, Sovet İttifaqının quruluşunun əleyhinədir”.

...Kirovabad şəhərinin Gəncə ilə əvəzlənməsi yolunda həlledici addımlar isə XX əsrin 80-ci illərinin ikinci yarısında atıldı.

Yadımdadır, 1987-ci il fevralın 13-də Bakıda Azərbaycan jurnalistlərinin VII qurultayı keçirilirdi. Bu sətirlərin müəllifi o zaman şəhər partiya komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri kimi Gəncədən gələn nümayəndə heyətinə rəhbərlik edirdi. Gəncə nümayəndələri arasında istedadlı yazıçı-jurnalist, “Kirovabadski raboçi” qəzetinin redaktor müavini Nüşabə Məmmədli də var idi. Birdən Nüşabə xanım söz aldı və öz fikrini çox məntiqlə, ağıllı şəkildə, hərtərəfli əsaslandırmaqla Gəncə adının bərpa olunmasını təklif etdi. Elə bu zaman, necə deyərlər, aləm bir-birinə dəydi. Rəyasət heyətində əyləşmiş Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi K.Bağırov əlini Nüşabə Məmmədliyə tərəf uzadaraq qəzəblə “nədi, millətçilik toxumu səpirsiniz? Alma-Ata hadisələri bəyəm sizə dərs olmadı?.. Baxın, aramızda xalq düşməni oturub və belələrinə qarşı amansız olmalıyıq” – dedi. Bilmirəm, K.Bağırovun məqsədi ya Moskvadan gələn nümayəndəyə özünü göstərmək, ya da elə yuxarıya yarınmaq üçün bu cür çıxış etməsi, hər halda, çoxumuza qəribə gəldi. Salondan səs çıxmadı. Birinci katib yalnız “siz məni müdafiə etmirsiniz? Eybi yox, əsl kommunistlər məni düz başa düşərlər” – deyə əsəbi formada dillədikdən sonra beş-on adam əl çaldı.

Bəlkə də o zaman çoxları bilmirdi ki, cəmi iki ildən bir qədər sonra Kirovabad adı tarixin bir küncünə atılacaq və Gəncə adı yenidən şəhərin özünə qaytarılacaq.

1988-ci ilin sonu – 1989-cu ilin əvvəllərindən Gəncə adının bərpası uğrunda hərəkat daha geniş vüsət aldı. Hətta 1989-cu ilin sentyabr-oktyabr aylarında şəhərin adının dəyişdirilməsi məqsədi ilə əhali arasında imza toplanması kampaniyası başladı.

1989-cu il dekabrın 9-da Kirovabad Şəhər Xalq Deputatları Sovetinin sessiyası oldu. Sessiyada deputatlarla yanaşı, ziyalılar, ictimaiyyət nümayəndələri və qonaqlar da iştirak edirdilər. Böyük işgüzarlıq və coşqu ilə keçən iclasda şəhərin adının bərpası məsələsi müzakirə olundu. Qərara alındı ki, bununla bağlı yuxarı instansiyalara məktub yazıldı.

1989-cu ilin 29 noyabrında növbəti dəfə Kirovabad şəhər Xalq Deputatları Sovetinin sessiyasında sözügedən məsələ müzakirə edildi və Gəncə adının bərpası təklifi qəbul olundu. Ertəsi gün isə, yəni dekabrın 30-da Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti bu qərarı təsdiq etdi.




1990-cı il yanvarın 2-də bu münasibətlə Gəncədə təntənəli iclas keçirildi və xalq bunu böyük ruh yüksəkliyi ilə qarşıladı.

... Artıq aradan 33 il vaxt keçib. 1804-cü ildən sonra heç vaxt imkan verməyiblər ki, şəhər bu qədər özünün halal Gəncə adı ilə yaşasın. Amma tarixi nə qədər gizlətsən də, o, gec-tez özünü büruzə verəcək və əsl həqiqəti ortaya qoyacaq, Ulu Gəncə kimi!

**Hamlet QASIMOV,**
**“Xalq qəzeti”nin**
**bölgə müxbiri**